

*Azərbaycan dünyaya günəş kimi doğacaq.*
*Heydər ƏLİYEV*


XALQIN SÖZÜ HAQQ SÖZÜDÜR

# LERİK

№ 01 (5577) ✹ 26 Yanvar 2016-cı il ✹ Qəzet 1937-ci ildən çıxır ✹ Rayonun ictimai-siyasi qəzeti ✹ Qiymәti 40 qəpik


# 20 YANVAR ÜMUMXALQ HÜZN GÜNÜDÜR

## 20 Yanvar faciəsinin 27-ci il dönümü ilə əlaqədar ümumrayon anım mərasimi keçirildi






**Lerik Rayon İcra Hakimiyyəti başçısının müvafiq sərəncamı ilə təsdiq edilmiş "20 Yanvar faciəsinin iyirmi yeddinci ildönümünün keçirilməsinə dair Lerik Rayon İcra Hakimiyyətinin tədbirlər planı"na uyğun olaraq rayon icra hakimiyyəti başçısının, hüquq mühafizə orqanlarının, idarə, təşkilat və müəssisə kollektivlərinin, ağsaqqallar, ziyalılar və ictimaiyyət nümayəndələrinin iştirakı ilə "Şəhidlər" abidə kompleksində anım mərasimi keçirildi.**

Rayon icra hakimiyyəti başçısı, rayonun hüquq mühafizə orqanlarının, idarə təşkilat və müəssisələrin kollektivləri, ağsaqqallar və ictimaiyyətin nümayəndələri, məktəblilər "Şəhidlər" abidə kompleksinin önündə tər gül-çiçək dəstələri düzərək faciə qurbanlarının xatirəsini ehtiramla yad etdilər.

Anım mərasimi rayon mədəniyyət mərkəzi və şəhər 1 saylı texniki fənlər təmayüllü liseyin hazırladığı bədii kompozisiya ilə davam etdirildi.

Rayonun ərazisində şəhidlərin xatirəsi bir dəqiqlik sükutla yad edildi.

# VƏTƏNDAŞLARIN QƏBULU KEÇİRİLDİ

**Lerik Rayon İcra Hakimiyyətinin inzibati binasının qəbul otağında rayon icra hakimiyyəti başçısı tərəfindən rayonun aidiyyəti idarə, müəssisə və təşkilat rəhbərlərinin iştirakı ilə vətəndaşların qəbulu keçirildi.**

Ümumilikdə rayon icra hakimiyyəti başçısı tərəfindən 36 nəfər vətəndaş qəbul olunaraq dinlənildi.

Barzavu kənd sakini, şəhid atası Tərlan Həmidov səhhətində problemlər olduğundan müalicə olunmasına, Lerik şəhər sakinləri, şəhid bacısı Mətanət İbrahimova oğlunun, Ceyhun Məmmədov, Blaband kənd sakini Həbib Diniyev oğlunun, Mastail kənd sakini Tofiq Məmmədov, oğlunun, Hamarmeşə kənd sakini Ehram Salmanov, Pirəsora kənd sakini Həzər Mirzəyev, Anbu kənd sakini Tahir Həbibov oğlunun və Nüvədi kənd sakini Nürəddin Ağayev müvafiq işlə təmin olunmalarına, Noda kənd sakini Aydın Məmmədov yanmış evinin təmiri üçün tikinti materialının verilməsinə, Tikəband kənd sakini Ağamoğlan Nəbiyev Tikəband kəndinə qaz xəttinin çəkilməsinə köməklik göstərilməsini xahiş etdilər.



Qəbulda olan vətəndaşlar tərəfindən qaldırılan problemlərin həlli ilə bağlı müvafiq tədbirlərin görülməsi, müraciətlərinin araşdırılması və icrası ilə əlaqədar aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verildi.

# ŞİNƏBAND KƏNDİNDƏ VƏTƏNDAŞLARLA SƏYYAR GÖRÜŞ-QƏBUL

**Rayon icra hakimiyyəti başçısının, hüquq mühafizə orqanlarının, əlaqədar idarə və təşkilat rəhbərlərinin iştirakı ilə Şinəband kəndində vətəndaşlarla səyyar görüş-qəbulu keçirildi.**

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov görüş iştirakçılarını salamladı. Bildirdi ki, yeni ildə cənab Prezidentin göstərişinə əsasən yerlərdə əhali ilə keçirilən səyyar görüş-qəbula toplaşmışıq. Bu gün təsdiq edilmiş qrafikə uyğun olaraq sizlərlə birlikdəyik. Məqsədimiz cənab Prezidentin tapşırığına əsasən əhali ilə bilavasitə yerlərdə görüşüb, problemləri dinləməkdir. Aidiyyəti idarə rəhbərləri, hüquq mühafizə orqanlarının rəhbərləri burada iştirak edir.



Lerik Rayon İcra Hakimiyyətinin başçısı qeyd etdi ki, Şinəband kəndinə gələn yüksək gərginlikli və kənddaxili elektrik xətlərində, avtomobil yolunda problemlərin mövcud olduğunu bilirik. Bu problemlərin aradan qaldırılması üçün səlahiyyətlərimiz çərçivəsində işlər aparır, imkanlarımız daxilində olanların həllinə həmişə köməklik göstəririk.

Səyyar görüş-qəbulda çıxış edən vətəndaşlardan ağsaqqal Hümmətəli Talıbov. İdrət Rzayev, Ağakişi Kişiyev çıxış edərək görülən işlərə görə minnətdarlıqlarını bildirdilər və kənddə gələn elektrik və rabitə xətlərinin təmirinə, avtomobil yolunun əsaslı tikintisinə, mübahisəli pay torpaqlarının naturada göstərilməsinə, müqavilə əsasında götürülmüş yay otlaq sahəsinin müqavilə müddətinin uzadılmasına və kənd klubunun əsalı təmirinə köməklik göstərilməsini xahiş etdilər.

Səyyar görüş-qəbulda vətəndaşlar tərəfindən verilmiş təklif və qaldırılan problemlərin icrasına nail olmaq məqsədilə zəruri tədbirlərin görülməsindən ötrü aidiyyəti vəzifəli şəxslərə yerində tapşırıqlar verildi.

Rayon icra hakimiyyətinin başçısı səyyar qəbulda Şinəband kənd sakinləri Rüstəm Talıbov və Əli Abbasovun şəxsi məsələlərlə bağlı etdiyi müraciətlərlə əlaqədar müvafiq göstərişlər verdi.

# Ərazilərdə hesabat yığıncaqları

## Uğurlar qeyd edildi, təkliflər verildi

**Züvüc kənd inzibati ərazi dairəsi üzrə icra nümayəndəsinin hesabat yığıncağında Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov, hüquq mühafizə orqanlarının, aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərləri, kənd ictimaiyyətinin nümayəndələri iştirak edirdi.**

Hesabat yığıncağını giriş sözü ilə açan rayon icra hakimiyyəti başçısı Rövşən Bağırov bildirdi ki, 2016-cı ildə dünyada və yaşadığımız regionda iqtisadi, siyasi, hərbi böhranın daha da dərinləşməsinə, risklərin və təhlükələrin artmasına baxmayaraq, Azərbaycan 2016-cı ildə də uğurlu inkişaf tempini saxlaya bilmişdir. Uzunmüddətli dövr üçün düşünülmüş iqtisadi siyasət ölkədə makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf üçün möhkəm zəmin yaratmışdır. Məhz bunun nəticəsində geniş sahibkarlar təbəqəsi formalaşmış, ölkənin sosial-iqtisadi inkişafında özəl sektorun rolu daha da artmış və ümumdünya iqtisadi sisteminə inteqrasiya sahəsində mühüm nailiyyətlər əldə olunmuşdur.



Cənab Prezidentin rəhbərliyi ilə ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində çox önəmli addımlar atılmışdır. Biz inanırıq ki, yaxın illərdə bunların real nəticələrini xalqımız öz yaşayışında hiss edəcəkdir.

Möhtərəm Prezident cənab İlham Əliyevin rayona səfərləri, rayonun sosial-iqtisadi inkişafı ilə bağlı imzaladığı sərəncamları, xüsusilə Züvüc ərazi icra nümayəndəliyinə daxil olan kəndlərin sakinlərinin istifadə etdiyi Noda-Şingədulan-Xanagah yolunun tikintisinin davam etdirilməsi məqsədilə 01 noyabr 2016-cı il tarixdə imzaladığı növbəti sərəncamla 6,6 milyon vəsait ayrılmış, yolun tikintisinin qısa vaxt ərzində başa çatdırılması üçün torpaq-hamarlama işlərinə başlanılmışdır.

Sonra Züvüc kənd ərazi icra nümayəndəsi Qabil Hüseynovun məruzəsi dinlənildi. İcra nümayəndəsi təhsil, səhiyyə və kənd təsərrüfatı sahələrində əldə edilmiş uğurları sadaladı, ali məktəbə qəbul olunan məzunların sayının ildən artığını qeyd etdi. Zövnə kənd ümumi orta məktəbi üçün yeni binanın tikintisinə köməklik göstərilməsini xahiş etdi.

Hesabat yığıncağında Züvüc kənd xəstəxanasının baş həkimi Tomar Şahmarov, Züvüc kənd tam orta məktəbinin direktoru Sahil Ağayev, Züvüc kənd sakini, ağsaqqal Barat Xaniyev, Zövnə kənd ümumi orta məktəbin direktoru Elxan Əliyev, Züvüc kənd tam orta məktəbinin müəllimi Vaqif Şahmarov çıxış edərək görülən işlərdən razılıqlarını bildirdilər və Züvüc və Zönə kəndlərinə yolun çəkilməsinə, qonşu Yardımlı rayonunun Əngövil kəndindəki qazpaylayıcı stansiyadan ərazinin yaşayış məntəqələrinin qazlaşdırılmasının əlverişli olduğunu bildirdilər və köməklik göstərilməsini xahiş etdilər.

Yığıncaqda məruzə və çıxışlarda səsləndirilən tənqidi qeyd və təkliflərin icrası ilə bağlı müvafiq qərar qəbul edildi.

## YENİ VƏZİFƏLƏR QARŞISINDA

**Lerik RİH başçısının Noda kənd inzibati ərazi nümayəndəliyində 2016-cı ildə görülmüş işlər barədə hesabat yığıncağı keçirilmişdir. Noda kənd inzibati ərazi nümayəndəsi Mirabbas Vəliyevin məruzəsi dinlənilmişdir. Qazanılmış uğurlar, ərazidə həyata keçirilən işlərlə yanaşı, məruzədə qeyd edildi ki, qarşıda həllini gözləyən problemlər var və onlar həll edilməli, yol verilmiş nöqsanlar aradan qaldırılmalıdır.**

Hesabat məruzəsi ətrafında çıxışlar tənqid və özünütənqid şəraitində keçmişdir. Noda bələdiyyəsinin sədri Ağayev çıxışında demişdir ki, 35 yerlik uşaq bağçasının binası qəzalı vəziyyətdə olduğu üçün köhnə bina sökülmüş və yenisinin tikintisinə başlanılmışdır. Lakin sonradan binanın tikintisi dayandırılmışdır. Aidiyyati təşkilatlar bu işə tezliklə başlamalıdır.

Noda kənd mədəniyyət evinin müdiri Tarverdi Ağayev demişdir ki, mədəniyyət evinin binasının istismar müddəti bitdiyi üçün əsaslı təmirə ciddi ehtiyacı vardır. Günəşli kənd sakini Fərman Muradov ərazidə yerləşən kəndlərə mavi qaz kəmərinin çəkilməsinin zəruriliyini qeyd etdi. Noda kənd sakini Namik Zeynalov ərazidəki elektrik dirəklərinin bərbad vəziyyətdə olmasını, nəticədə kəndlərə elektrik enerjisi verilişində fasilələr yarandığını diqqətə çatdırdı.

Ümumi yığıncaq hesabat məruzəsini, qeyd olunan təklifləri nəzərə alaraq müvafiq qərar qəbul etdi.

## PROBLEMLƏR HƏLLİNİ TAPMALIDIR

**Blaband kənd inzibati ərazi dairəsi üzrə icra nümayəndəliyinin hesabat yığıncağında Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov, hüquq mühafizə orqanlarının, aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərləri, kənd ictimaiyyətinin nümayəndələri iştirak edirdi.**



Hesabat yığıncağını giriş sözü ilə açan Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov bildirdi ki, artıq tarixə çevrilmiş 2016-cı ildə dünya iqtisadiyyatında hökm sürən böhrana, neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan iqtisadiyyatı öz dayanıqlığını saxlaya bilmiş, iqtisadi sabitlik təmin edilmişdir. 2016-cı ildə təməli qoyulan ciddi iqtisadi islahatlar, cənab Prezidentin sərəncamı ilə təsdiq edilmiş strateji "Yol xəritələri", ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış addımlar respublikamızın gələcək inkişafı üçün yeni perspektivlər açacaqdır.

2016-cı ildə də ölkədə aparılan geniş quruculuq tədbirləri rayonumuzdan da yan keçməmişdir. Lerik şəhərinin küçə və meydanlar abadlıq-quruculuq işləri davam etdirilmiş, Əvilə və Kirəvud kəndlərində yeni məktəb binaları inşa edilmiş, Murya, Mastail, Durğan və Əvilə kəndlərinə qaz xətti çəkiliş davam etdirilmişdir. Cənab Prezidentin qayğısı ilə sizin ərazinizin sakinlərinin də mütəmadi istifadə etdikləri Lerik-Qosmalıan-Kəlvəz yolu və bu yolu Blaband, Ambu və Barzavu, Xəlfəkücə, Osnağakücə kəndləri ilə birləşdirən kəndara avtomobil yolları da asfaltlaşdırılmışdır.



Hesabat yığıncağında ötən ilin sosial-iqtisadi uğurları, qarşıda duran vəzifələr müzakirə edildi. Blaband kənd icra nümayəndəsi İlham Alışanovun məruzəsi dinlənildi.

Hesabat yığıncağında Ambu kənd tam orta məktəbinin direktoru Tofiq Səfərov, Blaband kənd sakini, ağsaqqal Mirzəli Əliyev, Barzavu kənd sakini Əflatun Həsənov, Şinəband kənd ümumi orta məktəbinin direktoru Habil Talıbov çıxış edərək görülən işlərdən razılıqlarını bildirdilər və qarşıda duran vəzifələrlə bağlı təkliflərini diqqətə çatdırdılar.

Yığıncaq iştirakçılarından Lüləkəran kənd tam orta məktəbinin direktoru Şakir Babayev Lüləkəran kənd məktəbi üçün yeni binanın tikintisinə, Lüləkəran kənd sakini Əfqan Quliyev Lüləkəran avtomobil yolunun əsaslı təmir olunmasına, Blaband kənd sakini Manaf Diniyev ərazidə kənd təsərrüfatı texnikasının çatışmadığını, olan texnikaların baha qiymətə işlədiyini bildirdi və köməklik göstərilməsini, Barzavu kənd sakini Mərəyev Xanlar qəzalı vəziyyətdə olan elektrik xətlərinin təmirinə, Ambu kənd tam orta məktəbinin müəllimi Vasif Abdullayev kənddə genişzolaqlı internet xidmətinin təşkilinə köməklik göstərilməsinə xahiş etdilər.

Yığıncaqda məruzə və çıxışlarda səsləndirilən tənqidi qeyd və təkliflərin icrası ilə bağlı müvafiq qərar qəbul edildi.

# VİZƏZƏMİN KƏND TAM ORTA MƏKTƏBİNDƏ

## DÖVLƏT TƏHSİLƏ XÜSUSİ DİQQƏT GÖSTƏRİR



Əlisa Əbilov,
*Ə.Musayev adına Vizəzəmin kənd tam orta məktəbin direktoru*

**Ulu öndər Heydər Əliyev Azərbaycanda gənclər siyasətinin, təhsil strategiyasının hazırlanıb həyata keçirilməsinə böyük önəm verirdi. Ölkə gəncləri ilə görüşündə böyük strateq deyirdi: "Əziz övladlar! Sizin kimi gəncləri olan Azərbaycan sarsılmazdır. Mən hədsiz sevinirəm ki, Azərbaycanın gələcəyini möhkəm əldə saxlaya bilən, Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gənclər var. Bunlar sizlərsiniz, əziz övladlar".**

Azərbaycan müəllimlərinin XIV qurultayında təhsil sisteminin, biz müəllimlərin qarşısında duran vəzifələr aydın göstərilmişdir. Təhsil sisteminin yetişdirdiyi vətəndaş, ilk növbədə, öz köklərinə bağlı və milli mənsubiyyəti ilə fəxr edən vətənpərvər, dərin biliyə malik müasir baxışlı və mütərəqqi insan öz xalqının adət-ənənələrinə və milli dəyərlərinə sadiq bir şəxs olmalıdır. Pedaqoji kollektivimiz bütün fəaliyyəti dövründə bu amilləri əsas götürür, gələcəyin gənc qurucularını hazırlayır. Təhsil taleyüklü, milli məsələdir, dövlətimiz təhsil sahəsinə xüsusi diqqət və qayğı göstərir, onu ildən-ilə inkişaf etdirir.

Azərbaycan Prezidenti İlham Əliyev ölkə ictimaiyyətinə söylədiyi "Biz istəyirik ki, gənc nəsil bilikli, savadlı olsun, eyni zamanda vətənpərvərlik ruhunda tərbiyə alsın. Vətənə bağlılıq, vətən sevgisi, mütləq yüksək səviyyədə olmalıdır. Ümid edirəm ki, bizim bütün məktəblərimizdə vətənpərvərlik mövzusu daim gündəlikdədir. Vətənə bağlılıq, sevgi, peşəkar və yüksək biliyə malik olmaq – bunlar ölkəmizi qabağa aparacaqdır" müddəası, heç şübhəsiz, müasir dövrdə təhsilimizin məqsədinin parlaq ifadəsidir. Müəllimlərimiz şagirdlərə təkcə bilik verməklə kifayətlənmir, onları vətən sonsuz məhəbbət ruhunda tərbiyələndirir, şanlı döyüş və qəhrəmanlıq əməllərinə sadiq qalmasına səy göstərirlər, ölkəmizin iqtisadi və müdafiə qüdrətinin artması üçün bilik və bacarıqlarını əsirgəmirlər.



Fizika müəllimi
Şahin Mustafayev



Sinif müəllimi
Şükufə Bünyadova



İdmançı Elbrus Məmmədov



"Cəsurlar" komandasının üzvlərinə verilmiş Fəxri fərmanlar



## "CƏSURLAR" İRƏLİ ÇIXIR

İsrafil Rəhimov Vizəzəmin kənd tam orta məktəbində hərbi rəhbərdir. İsrafil müəllim gənclərin hərbi vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirir, onların vətənsevərlik ruhunu yüksəldir. Onun rəhbərliyi ilə şagirdlər "Cəsurlar" hərbi-idman oyunlarında yüksək yerlər tutmuşlar. 2012-ci ildən başlayaraq komanda yarışlarda layiqli yerlər tutduğuna görə Respublika İdman və Turizm Naziri Azad Rəhimov tərəfindən Fəxri fərmanlara, kubok və qiymətli hədiyyələrə layiq görülmüşlər. Məktəbin şagirdi Ramil Ramizli "Çağırışaşədərki hazırlıq" fənnində qazandığı yüksək nəticələrə görə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi general-leytenant Arzu Rəhimov tərəfindən Fəxri fərmanla təltif olunmuşdur. Bu yarışlarda şagirdlərdən Təhminə Bünyadova, Rəşad Hüseynov, Ramil Ramizli, Səbinə Rzayeva, Samirə Abdullayeva, Qüdrət Fətullayev, Elməddin Şərbətov, Cavad Mirzəyev, Vüsal Əliyev, Yusif Abdullazadə xüsusilə fərqlənmişlər.

## ƏVVƏLKİ ŞÖHRƏT QAYIDIR

**2015-2016-cı tədris ilində Ə.Musayev adına Vizəzəmin kənd tam orta məktəbini bitirən məzunlar respublikanın ali və orta ixtisas təhsil müəssisələrinə qəbul olunmuşlar:**

Əmirov Nurlan Elşad oğlu (I qrup) 670 balla Ali Neft Məktəbinin Kimya Mühəndisliyi fakültəsinə, Şahpələngova Nübar Sultan qızı (III qrup) 520 balla Azərbaycan Pedaqoji Universitetin tarix fakültəsinə, Əlizadə Simnar Arif oğlu (III qrup) 516 balla Bakı Dövlət Universitetin Azərbaycan dili və ədəbiyyatı fakültəsinə, Bunyadova Təhminə Sarvan qızı (I qrup) 371 balla Azərbaycan Pedaqoji Universitetin İnformatika müəllimliyi fakültəsinə, Nuruyeva Əfsanə Arif qızı (III qrup) 302 balla Sumqayıt Dövlət Universitetinin Təhsildə Sosial Psixoloji xidmət fakültəsinə, Qurbanova Səbinə Maqsud qızı (I qrup) 309 balla Bakı № 1-li Tibb Kollecinin Müalicə işi fakültəsinə, Bünyadova Turac Sarvan qızı (I qrup) 209 balla Sumqayıt Tibb Kollecinin Tibb bacısı fakültəsinə, R.S. 2015-2015-ci il məzunu Qüdrətzadə İsrafil Fərəməz oğlu (I qrup) 323 balla Sumqayıt Dövlət Universitetinin fizika müəllimliyi fakültəsinə qəbul olunmuşlar.

Vizəzəmin kənd tam orta məktəbində tədrisin keyfiyyəti ilbəil yüksəlir, müəllimlər yeni yanaşma metodlarından bacarıqla istifadə edirlər. Qarşıdakı illərdə daha çox məzunu ali məktəblərə qəbulu gözlənilir.



Rayon Ağsaqqallar Şurasını Vizəzəmin ərazisi üzrə təmsil edən Qələmmirzə Əliyev



Müəllim Nüşabə Əmirova şagirdləri yeni il münasibətilə təbrik edir



BƏXTİYAR MEHDİYEV

1992-ci ildə APRDƏ – indiki Slavyan Universitetini fərqlənmə diplomu ilə bitirmişdir. 1992-1993-cü illərdə şəhid Z.Həsənov adına Bırkandul kənd ümumi orta məktəbində rus dili müəllimi, 2003-cü ildən isə Vizəzəmin məktəbində rus dili müəllimi işləmişdir. 2011-ci ildən məktəb direktorunun təlim-tərbiyə işləri üzrə direktor müavinidir.

Üç dəfə Vizəzəmin bələdiyyəsinə üzv seçilmişdir. Hazırda Vizəzəmin bələdiyyəsinin sədr müavinidir. Abadlıq işlərinin həyata keçirilməsində fəallıq göstərir.



ARİF ƏLİYEV

1997-ci ildə Bakı Bədən Tərbiyəsi Texnikumunu bitirmiş, 1997-ci ildən Ə.Musayev adına Vizəzəmin kənd tam orta məktəbində təşkilatçı müavin vəzifəsində çalışır.

1992-96-cı illərdə Azərbaycan Respublikasının torpaqları uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Şagirdlərin vətənpərvərlik ruhunda böyüməsində fəallıq göstərir.

## Təhsil millətin gələcəyidir

**Vizəzəmin kənd tam orta məktəbində savadlı, təcrübəli, daim yenilik hissi ilə yaşayan müəllimlər işləyirlər. Onlar bilik və bacarıqlarını gənc nəslin vətənə layiq böyüyüb tərbiyə almasına sərf edirlər. Təhsil millətin gələcəyi olduğu üçün onlar pedaqoji işə məsuliyyətlə yanaşırlar.**

Ötən ilin dekabr ayında Masallı şəhərində keçirilmiş müxtəlif diaqnostik qiymətləndirmə zamanı test imtahanlarında məktəbin müəllimləri xüsusi olaraq fərqlənmiş, rayonda birinci yeri tutmuşlar. Məktəbin fizika müəllimi Şahin Mustafayev 98, riyaziyyat-informatika müəllimi Nuşabə Əmirova 91, sinif müəllimi Şükufə Bünyadova 80, sinif rəhbəri Rizvan Hüseynov 76,6 faiz nəticəyə nail olmuşlar.

Tarix müəllimi Əhməd Ağayev, biologiya müəllimi Eldar Bünyadov imtahanda fərqləniblər. Onlar təhsilə, öz ixtisaslarını daim təkmilləşdirməyə, müasir təhsil sisteminin qarşıya qoyduğu vəzifələrə diqqətlə yanaşır, şagirdlərin həyatda fəal mövqe tutmasına çalışırlar.

Qabaqcıl müəllimlərə uğurlar arzulayırıq.



ƏHMƏD MÜƏLLİM

Əhməd Ağayev Lənkəran Dövlət Universitetini bitirmişdir. 2001-ci ildən Vizəzəmin kənd tam orta məktəbində müəllim işləyir. O, pedaqoji axtarışlarını həmişə davam etdirir, yenilikçidir, şagirdlərini vətənpərvərlik ruhda böyüdür, onlara elmi bilikləri həvəslə öyrədir.

Əhməd Ağayev "Perestij-S" Tədris Mərkəzinin sınaq imtahanlarında 82 faiz nəticə əldə etmişdir. "İnnovativ təhsilin metodologiyasının və müvafiq resursların hazırlanması" mövzularında seminar-treninqi uğurla başa vurmuşdur. O, "Tərəqqi" medalına layiq görülmüşdür. Zənnimizcə, Əhməd Ağayev Əməkdar müəllim adına layiqdir.

*Veteran sözü*

## MƏNİM ARZUM



**Təvəllüdümün 2017-ci ilinə qədəm qoymuşam. Həyatımda enişli-yoxuşlu günlər çox olub. Bəzən ötən illərə xəyalən də olsa baş çəkirəm. Söz yox ki, fərəhli günlərə sevinirəm, fərəhsiz günlər ürəyimi sıxır. Müstəqil Azərbaycanın bugünkü yüksəlişinə, Azərbaycanın dünyada artan nüfuzuna, ölkədəki sabitliyə, abadlığa və inkişafa, adamların xoş güzəranına sevinirəm. Bütün bunlara görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edirik.**

Lerik şəhərinin, kəndlərin, yolların tikintisi lap ürəyindən xəbər verir. Götürək əvvəlki illəri. Lerik tamam baxımsız qalmışdı. Qabaqlar kənddən çox da seçilməyən Lerik indi maşallah olsun, uca dağların qoynuna sığınmış müasir və yaraşıqlı, gur işıqlı bir şəhərdir. Burada yaşayanlar zəhmətin qədir-qiymətini bilənlər, halal adamlardır. Onlar sabahlara ümidlə baxır, müstəqil bir ölkədə yaşamaları ilə fəxr edirlər.

Mən 1941-45-ci illər müharibəsinin iştirakçısı və I qrup müharibə əliliyəm. Müharibədə müxtəlif xalqların nümayəndələri ilə düşmənə qarşı vuruşurduq. Alman işğalçıları yuvasınadək qovulub sıradan çıxarıldı. Əmin-amanlıq dövründə isə özümüzə yaxın bildiyimiz erməni millətçiləri bizə düşmənçilik etdilər. Qanlı müharibədə Vətən torpağı, yurd naminə oğullarımız şəhid getdi. Rayonlarımız işğal edildi, sərvətlərimiz talandı.

Böyük Heydər Əliyevin hakimiyyətə gəlişi ilə hər şey yaxşılığa doğru dəyişdi. "Əsrin müqaviləsi" Azərbaycanın dirçəlişinə səbəb oldu. Onun yolunu hörmətli Prezidentimiz İlham Əliyev böyük uğurla davam etdirir. Ona uzun ömür, cansağlığı arzu edirəm. Ordumuz Qafqazda birincidir. Əsgərlərimiz isə hər zaman işğala məruz qalmış torpaqlarımızı azad etməyə qadirdir. Biz bunu gənclərin əsgərliyə yola salınması zamanı diqqətə çatdırırıq. Onlara deyirik ki, Qarabağın işğaldan azad olunmasına çox qalmayıb. Biz öz torpaqlarımıza sahib olacağıq. Bunu azğınlaşmış düşmən də yaxşı bilir.

Biz müharibə veteranları dövlətimizin, Prezident İlham Əliyevin diqqət və qayğısından razıyıq. Onun bizə münasibətini həmişə hiss edirik. Allah ona uzun ömür versin, ölkəni idarə etməkdə kömək olsun. Arzumuz həmişə birmənalıdır: ölkəmiz daim tərəqqi etsin, üçrəngli bayrağımız Qarabağda dalğalansın, hər bir ev ruzulu-bərəkətli olsun.

***Söhbət Fərziyev,***
*İ qrup BVM əlili*

## Uşaqların şənliyi









Lerik şəhər uşaq bağçası II orta qrupda Yeni il şənliyi keçirilirdi. Aparıcı Sənay Nəhmətova dedi:

- Əziz uşaqlar və valideynlər, sizi Dünya Azərbaycanlılarının Həmrəylik günü olan 31 dekabr və Yeni il bayramı münasibətilə təbrik edirəm. Arzum budur ki, qoy yeni 2017-ci il sizə uğurlar gətirsin, sağlam böyüyəsiniz, süfrələriniz həmişə ruzulu-bərəkətli olsun.

Şaxta baba içəri daxil olur və soruşur:

- Əziz uşaqlar, yolkanız yoxdurmu? Bu dəqiqə çomağımla sehr edərəm, yolkamız olacaq.

Tərbiyəçi Aidə Cavadova uşaqlara yeni il təbrikini çatdırır və bağçanın müdiri lalə Əliyevaya söz verdi. Lalə müəllimə körpə fidanlara ən xoş arzularını bildirdi. Nailə Nəsirova, Təxminə Məhərrəmova uşaqları təbrik etdi, onlara yeni ildə uğurlar dilədi.

Uşaqlardan Rəsul və Fatimə, Aylin, Əsma, Məhəmməd, Əli, İbrahim, Xədicə, Fərid, Həsən, Nicat, Nuray onlara verilmiş rolları məharətlə ifa etdilər, səhnəciklər və nağıllar, şeirlər və rəqslər maraqla qarşılandı. Bayram şənliyi bağçanın 6 qrupunda keçirildi.

Tədbir başa çatdı. Uşaqların hər biri evinə bayram sovqatı, bayram sevincləri apardı. Düşünmək olardı ki, bu sevinc uzun müddət onların yaddaşından silinməyəcək

## Arıçılıq Assosiasiyasının Lerik rayon təşkilatı yaradıldı



**Azərbaycan Arıçılar Assosiasiyasının Lerik rayonunda təşkilatını yaratmaq məqsədilə yığıncaq keçirilib. Yığıncaqda AAA-nın sədri Bədrəddin Həsrətov, müavinləri? Lerik arıçıları, mütəxəssislər iştirak ediblər.**

Yığıncağı AAA-nın sədri Bədrəddin Həsrətov açaraq AAA-nın yaradılması zərurətindən, arıçılığın inkişafına yardım etməkdən, arıçılıqla bağlı qəbul olunmuş Dövlət Proqramının həyata keçirilməsindən, arı məhsullarının və balın istehsalı və xarici bazarlara çıxışından danışdı. Bununla bağlı rayonda da Arıçılıq Assosiasiyaları yaradılmalıdır.



Sədr müavini Sabir Mustafayev Arıçılıq Assosiasiyasına üzvlüyə qəbuldan, üzvlük haqqının yığılmasından və qarşıda duran məqsədlərdən danışdı.

Arıçı Ələkbər Salayev çıxışında bildirdi ki, Lerikdə yüksək potensiallı, bacarıqlı, müasir arıçılığı inkişaf etdirən arıçılarımız çoxdur. Belə arıçılardan İqamət Mirzəyev, Nazim Muradov, Mahir Surətov, İlham Vəliyev və başqalarını göstərmək olar. Amma çox təəssüf ki, burada arıçı olmayan vətəndaşlar da bu tədbirə qatılıblar. Onları Assosiasiyada seçim hüquqları yoxdur.

Arıçı Yaqub Məmmədov arısı Ələkbər Salayevi uzun müddət tanıdını, arıçılığın rayonda inkişaf etdiyini, arıçılara yaxından kömək etməsini, respublikada dövlət səviyyəsində keçirilən tədbirlərində lerik arıçılarını təmsil etdiyini, yüksək təşkilatçılıq qabiliyyəti olduğunu diqqətə çatdırdı. Böyük səs çoxluğu ilə Ələkbər Salayev Lerik Arıçılar Assosiasiyasına sədr seçildi.

Yığıncaqda Lerik Arıçılıq Assosiasiyasının təftiş komissiyası və üzvləri seçildi.

# HƏR YAZILAN KİTABDIRMI?

### SÖZÜN GÜCÜ ORDUNUN GÜCÜNƏ BƏRABƏRDİR

Məhəmməd Peyğəmbər (s.ə.s.) bəşər övladına ilk dəfə "oxu!" kəlməsi ilə müraciət etmiş, bir əsr yarım əvvəl Allahın buyruqlarını müqəddəs Qurani-Kərim vasitəsilə yer üzünə yaymışdır. Sözün gücü, qüdrəti barədə çoxlu misal çəkmək olar.

Sözlərinizə, duyğularınıza, onların müəllifinə inanın və sözünüzü deməkdən çəkinməyin. İstedadınızı boğmağa çalışmayın. Sözlər həmişə sel kimi axıb doluşmayacaq beyninizə. Yazdığınız əsər bir-iki gün üçün nəzərdə tutulmur. Əsl sənət əsəri ürəklərə girmək üçün, əsrlərə getmək üçün yazılır. Həyat yazmaq üçün mövzularla, hadisələrlə doludur. Məsələ burasındadır ki, hər şeyi yox, lazım olanı axtarıb tapmaq, onu oxucuya təqdim etmək lazımdır. Cek Londonun "Həyat eşqi", "Tonqal" hekayələri, "Marten İden" romanı oxucunun yaddaşına nə üçün həkk olunduğunu unutmayın.

Düşüncə sözlərsiz mövcud ola bilməz. Sözlərin mənbəyi isə dildir, ədəbiyyatdır. Düzgün danışmağı yalnız mükəmməl ədəbiyyat öyrədə bilər

### ƏDƏBİYYAT ƏVƏZOLUNMAZDIR

Ədəbiyyat hər zaman fərdlərin həyatın bütün müxtəliflikləri arasında ortaq cəhətləri tapmağa, tarixin əngəllərini açmağa kömək edib. Heç nə insana etnik-mədəni fərqliliklərdə bəşəri mirasın zənginliyini görə bilməyi, bu fərqləri bəşəriyyətin çoxtərəfli yaradıcılığının nəticəsi kimi dəyərləndirməyi ədəbiyyatdan daha yaxşı öyrədə bilməz. Yaxşı ədəbiyyat nümunələrini oxuyub cəmiyyətdəki yerimizi, şüurumuzun gizli dərinliklərində kim olduğumuzu, nəyə xidmət etdiyimizə öyrənir, dinietnik fərqləri unudub insana insan kimi yanaşırıq, həyatı və gəlimli-gedimli dünyanı öyrənirik

Beləliklə, müasir dünyada insanlarla bağlı bütöv, dəqiq və canlı məlumat ancaq ədəbiyyatda olur. Bəşəri elmlərin başqa heç biri – hətta fəlsəfə belə bu bütövlüyü ədəbiyyat qədər ifadə edə bilmir. Ədəbiyyat bizi keçmişə aparır, günümüzə qədər gəlib çatmış, bizə zövq verən, xəyallar qurmağa vasitəçi olan mətnlərlə bizi o duyğuları yaşayıb, o xəyallar qurmuş adamlarla bağlayır. Dünyanın hər dövründə yaşamış insanları birləşdirən dəyərlər olduğunu anlatmaq mədəniyyətin və ədəbiyyatın ən böyük uğurudur.

Ədəbiyyatın ömrü bir nəfərin əsəri olmaqla başlamır. İctimai həyatın bir hissəsi olanda milyonlarla insanın həyatındakı çatışmazlıqları tamamladıqda, oxunaraqa paylaşılan bir tərzə çevriləndə başlayır. Zənnimcə, "ədəbiyyat nəyə lazımdır?" sualına qismən də olsa cavab tapdıq

### KİTAB NƏSİLLƏRİN BİR-BİRİNƏ VƏSİYYƏTİDİR

İlk kağız eramızdan əvvəl 153-cü ildə meydana çıxsa da, ilk çap olunmuş kitab koreyalılara məxsusdur. 1377-ci ildə çap maşınından çıxan bu kitab Budda və onun rahiblərinin həyatından bəhs edirdi. III əsrdə qotlar kitabları insan ömründən daha qiymətli sayırdılar. Təsəvvür edin ki, onlar 297-ci ildə Afinaya hücum edən zaman çoxlu sayda insan öldürmüşdülər, amma heç bir kitaba əl vurmamışdılar. Qədimdə, kitabların çox bahalı olduğu dövrlərdə də pulsuz kitabxanalar mövcud idi.



Kitabların oğurlanmaması üçün onları qandallarla və zəncirlərlə rəflərə bağlayırdılar

Kitab mənəvi xəzinə, elmin və ağılın açarıdır. Dahilər deyiblər ki, kitab nəsillərin bir-birinə vəsiyyətidir. Yaxşı kitablar oxumaq keçmiş əsrlərin ağıllı adamları ilə söhbət etmək deməkdir. Hər kitab özü ilə bir işıq gətirməlidir oxucuya. Müəllif kitabında oxucuya isti və doğma hisslər bəxş etməlidir. Biz əsl istedaddan, yuxusuz gecələrin zəhmətindən, oxucunun yaddaşına hopan, ona yaşamağı öyrədən, halal səviyyəli kitabları nəzərdə tuturuq. Elə kitablar ki, insanlara xoş anlar yaşadır, onların zehnini itiləyir. İstər şeir kitabı olsun, istərsə də nəsr və publisistik əsərlər olsun, fərqi yoxdur, ehtiva etdiyi dəyərlərinə görə yaddaşlarda qalır. Haqlı olaraq belə bir sual yaranır:

### HƏR YAZILAN KİTABDIRMI?

Bu sualı belə qoymaq daha düzgün olardı: - Hər nəsr edilən, oxucunun mühakiməsinə buraxılan kitabdırmı?

Biz kifayət qədər oxucu rəğbəti qazanmış, əsərləri daim oxunan tanınmış məşhur yazıçıların, şairlərin, publisistlərin kitablarına kölgə salmaq fikrində deyilik. Lakin söz hörmətdən düşdüyü üçün çap edilmiş bəzi kitabların satılmasına ümid yoxdur. İndi hamı kitab yazır. Kitab yazmaq çox asanlaşıb. Pulu olanlar üçün kitab nəşr etmək problemi yoxdur. Bəzilərinin (qeyri-peşəkarlar nəzərdə tutulur – İ.Ş.) kitabları bir kəndə, uzağı bir rayona aiddir. Məsələn, təqaüdə çıxan polis veteranının kitabını uzaqbaşı həmkarları, onların ailə üzvləri alacaq və oxuyacaq. Kimin dili, üslubu necədirsə, yazdığı əsərə də sirayət edəcək. Oxucu yazıçını, kitab müəllifini tanımırsa, kitabını almayacaq. Əgər kitab satılırsa, onda nəşriyyat həmin müəllifi seçir, əsərini çap edir, pul qazanır. Elə aşağı səviyyəli kitablar da nəşr edilir ki, orada Azərbaycan ədəbi dilinin qaydalarına əməl olunmur, cümlə xətalarına, çoxlu digər səhvlərə, məntiqsiz mühakimələrə yol verilir. Sual olunur: oxucuya heç nə verməyən kitab çap etdirmək nəyə lazım? Görəsən oxucu Nizaminin, Füzulinin, Nəsiminin, S.Vurğunun, Şekspirin, Tolstoyun, Cek Londonun, Dantenin əsərlərini oxumağa, yoxsa mürəkkəbi qurumamış zəif əsərlərə üstünlük verəcək?

Gəlin bütün bunlar barədə düşünək. Yazılı səlnaməyə ciddi yanaşaq, kitabı hörmətdən salmayaq.

***İdris Şükürlü***

# MULTİKULTURALİZM - ETNİK- MƏDƏNİ MÜXTƏLİFLİKLƏRİN TƏNZİMLƏNMƏSİNİN BİR SİYASƏT MODELİ KİMİ

**Multikulturalizm bir neçə icmanın mədəniyyətinin eyni bir toplumda yan-yanaşı yaşamasını və birgə mövcudluğunu bildirən bir anlayışdır. Termin iki mənada işlədilir: təsviri və normativ. Təsviri məqsədlə istifadə olunan terminə adətən adi mədəni müxtəliflik faktı aid olur: o, ümumilikdə konkret məkanın demoqrafik quruluşuna, bəzən məktəb, biznes, məhəlli, şəhər və yaxud millət səviyyəsində təşkilatlanmaya tətbiq edilir.**

Normativ termin olaraq, o, bu təyinatı və ya onun institusionallaşdırılmasını dəstəkləyən ideologiya və siyasətə aiddir; bu mənada, multikulturalizm insan həyatının zəngin naxışları ilə bol və insanların öz şəxsiyyətlərini istədikləri şəkildə ifadə etmək arzusunun yer tapdığı sərbəst bir cəmiyyətdir. Multikulturalizm çox vaxt mədəni assimilyasiya anlayışları ilə müqayisə edilir və "metal əridilən soba" deyil, "salat qabı", yaxud "mədəni mozaika" kimi təsvir olunur.

Multikulturalizm tərəfdarları multikulturalizmi tolerant cəmiyyətdə insanlara öz yerlərini tapmağa icazə verən və sosial məsələlərə daha yaxşı uyğunlaşan ədalətli sistem kimi görürlər. Onlar deyirlər ki, mədəniyyət vahid bir irq, yaxud vahid bir din üzərində qərarlaşmayıb; o, dünya kimi dəyişkən çoxsaylı amillərin nəticəsidir.

Multikulturalizm əleyhdarları tez-tez mübahisə edirlər ki, multikulturalizm idealı müxtəlif mədəniyyətlərin birgə yaşayışıdır, onların bir-birinə qarşılıqlı təsir göstərib bir-birini inkişaf etdirməsidir, yoxsa bu, arzunun reallıq kimi təqdim olunmasıdır. Çünki multikulturalizmi qəbul etməyənlər deyirlər ki, mədəniyyətlər arasında fərqlər var, qalır və qalacaq və bu mədəniyyətlərin paradoksları da qalacaq. İddia olunur ki, əvvəlcə özlərinin başqalarına bənzəməyən mədəni dərkinin sinonimi kimi qavranılan milli dövlətlər tətbiq etdikləri multikulturalizmə uduzur və nəticə olaraq da "sahib millət"in mədəniyyətinə ziyan dəyir.

Dünya və multikulturalist universal dəyərlər sistemi prinsipi başqasının mövcudluğunu qəbul etməyə əsaslanır. Belə ki, çoxmədəniyyətli dəyərlər sistemi min illər ərzində harmoniya şəraitində yaşayan müxtəlif irqlərin, etiqadların, fərqli kasta və etnosların olduğu cəmiyyətlərdə uzun əsrlər boyu çiçəklənir. Bu, müxtəlif etnosların, müxtəlif dillərin və müxtəlif inancların harmoniya şəraitində birgə yaşayışıdır ki, burada zəif təbəqələr və azlıqlar əhalinin çoxluq təşkil edən hissəsi ilə tamamilə təhlükəsizlik şəraitində ömür sürürlər.Bu, varlılarla yoxsulların birgə yaşayışıdır. Əslində, multikulturalizm hər bir millətə özünəməxsus sima və xarakter verir. Beləliklə, bu birgəyaşayış bəzi dəyərləri ümumiləşdirərək gündəlik həyatda əridir. Bu dəyərlər insanların həyatda qalmasını təmin edəcək mübarizə və arzulardan ibarətdir. Bu mübarizələrdən keçərək cücərən dəyərlər toxuma bənzəyir: o, qadağaları, inancları, həmçinin dilləri özündə cəmləşdirərək bütün qalan dünya ilə də öz içi və məzmunu ilə paylaşır.Multikulturalizm müxtəlif torpaqlardan gələn çoxlu axınların bəşəriyyətin böyük mirasını yaratmaq üçün töküldüyü ümumi bir çayı xatırladır. Buna görə də qatqısız mədəniyyətə xas millət, xalis millət, yaxud xalis irq tədricən yayğınlaşır və mədəniyyətin səciyyəsinin özü başqa təyinat qazanır, daha geniş anlam kəsb etməyə başlayır.

"Multikulturalizm" anlayışı Azərbaycan humanitar elminə daxil olduğu və elmi dairələrdə aktivcəsinə işləndiyi tarix təqribən son on ili özündə ehtiva edir. Lakin bu anlayış olmadan da, onun ətrafında diskussiyalar aparılmadan da azərbaycanlılar hələ çoxçoxillər bundan öncə mədəniyyətin multikültürəl bir durumunda yaşayırdılar və indi də yaşayırlar. Azərbaycan çoxsaylı xalqların məskunlaşdığı bir ölkədir: yəhudilər, ruslar, tatlar, talışlar, tatarlar, türklər, ləzgilər, avarlar, udinlər, gürcülər burada həmişə sərbəst ömür sürüblər, özlərinə güzəran qurublar, öz mədəniyyətlərini, yəni öz dillərini, inanclarını, adətlərini, mətbəxlərini qoruyub saxlayıblar. Bu ölkədə milli azlıqlardan, onların hüquqlarından və problemlərindən danışılsa da, əslində, heç bir azsaylı xalqın nümayəndəsi özündə azlıqda olan birisi kimi dərk eləməyib, hiss eləməyib. Adi bir misal çəkim: biz əksər hallarda ünsiyyətdə olduğumuz adamın hansı millətdən olduğuna, əgər milli nişanələr qabarıq tərzdə nəzərə çarpmırsa, fikir vermirik, heç bunu bilmirik də və bunu soruşmuruq da. Çünki Azərbaycanda böyük əksəriyyət sərbəstcəsinə azərbaycanca danışır və bu dili öz ana dili kimi qavrayır. Talış, ləzgi, tat, tatar Azərbaycan ədəbiyyatını öz ədəbiyyatı, Azərbaycan teatrını öz teatrı bilir və bundan narahatlıq keçirmir.

Lakin bununla belə Azərbaycanda yaşayan azsaylı xalqların teatrları da mövcuddur. Qaxda Azərbaycan Dövlət Gürcü Dram Teatrı, Qusarda Azərbaycan Dövlət Ləzgi Dram Teatrı, Bakıda hələ 1921-ci ildən Azərbaycan Dövlət Rus Dram Teatrı fəaliyyət göstərir. Hətta Azərbaycanda 80-ci illərdə "Beserer" eksperimental yəhudi teatr-studiyası da teatr prosesinə qoşulmuşdu. Ancaq həqiqət budur ki, bu teatrların heç birinin, təbii ki, Rus Dram Teatrını çıxmaq şərtilə, Azərbaycan teatr mühitinə, Azərbaycan teatr prosesinə mühüm təsiri olmayıb və yoxdur da: onların heç biri öz yaradıcı aktivliyi, yaradıcı energetikası, axtarış potensialı ilə seçilmir.Mən bu barədə, bunun səbəbləri haqqında çox düşünmüşəm, cavabını müxtəlif sosioloji-kulturoloji problemlərin müstəvisində axtarmışam və problemin mahiyyətinə əməllicə yaxınlaşmışam.

Sovet dönəminə qayıtsaq, görərik ki, əslində, Azərbaycan Dövlət Rus Dram Teatrı bütün millətlərin teatrı olub. Rus Dram Teatrı həm yəhudilərə, həm ləzgilərə, həm də türklərə, eləcə də digər milli azlıqların nümayəndələrinə, eyni dərəcədə açıq və doğma olub, birləşdirici funksiya daşıyıb. Hətta bu gün Rus Dram Teatrında çalışan etnik rus tapmaq çətindir: orada yaradıcı fəaliyyətlə məşğul olanlar etnik yəhudilər, etnik ləzgilər, etnik türklər, etnik avarlardır ki, sərbəst şəkildə rusca danışırlar. Əgər elə isə onda Rus Dram Teatrı kimin teatrıdır: bəlkə bu rus teatrı yox, artıq rusdilli teatr kateqoriyasına aiddir? Bəlkə elə bu səbəb ucbatından milli azlıqlar öz teatrlarına münasibətdə təşəbbüssüzdürlər? Axı bu milli azlıqların əksəriyyəti özünü daha çox rus dilində tanıyıb tapa bilir, əlbəttə ki, keçmiş SSRİ-dən qalmış bir miras, bir yadigar kimi.

Hərçənd problemin başqa bir tərəfi də var. Məsələn, müasir ləzgilər, talışlar Azərbaycan ədəbiyyatını, Azərbaycan teatrını elə öz ədəbiyyatları, teatrları sayırlar və bu sahələrdə də aktiv məşğul olurlar.

Əlbəttə, mən öz fikirlərimlə heç də iddialı deyiləm. Hər halda bu mənim hissi qavrayışımdır və multikulturalizm bir problem kimi teatrdan o illərdə də, indi də yan ötüşüb gedir.



**İsgəndər Orucov,**
Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı

# HÖRMƏTLİ VERGİ ÖDƏYİCİLƏRİ!

**"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 16.12.2016-cı il tarixli 454-VQD nömrəli Qanunu ilə Vergi Məcəlləsinə əlavə və dəyişikliklər 01.01.2017-ci il tarixdən qüvvəyə minmişdir.**

## Elan

**Dəyişikliklərə əsasən:**

ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim edilmiş (yola salınmış) mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il 1 aprel tarixdən, bütün digər vergi ödəyiciləri tərəfindən 2018-ci il 1 yanvar tarixdən malların (işlərin, xidmətlərin) alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara (malların, işlərin, xidmətlərin sifarişçisinə) elektron qaimə-faktura təqdim edilməlidir.

Sadələşdirilmiş vergini ödəyən hüquqi şəxslər eyni zamanda əmlak vergisinin də ödəyicisi hesab olunur.

Hesablaşmalar üzrə nağdsız ödənişlər məhdudlaşdırılacaq və qanunla nağd qaydada həyata keçirilməsi məhdudlaşdırılan əməliyyatların nağd qaydada həyata keçirilməsinə görə maliyyə sanksiyaları tətbiq olunacaqdır, eyni zamanda hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə 1 faiz dərəcəsi ilə sadələşdirilmiş vergi hesablanacaqdır.

ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 (iki yüz min) manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği 30.000 (otuz min) manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği 15.000 (on beş) min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir.

Azərbaycan Respublikası ərazisində istehsal olunan kənd təsərrüfatı məhsullarının pərakəndə satışı zamanı əlavə dəyər vergisi ticarət əlavəsindən hesablanacaqdır.

Torpaq sahələrinin satışı əməliyyatlarının rəsmiləşdirilməsi zamanı bu əməliyyatdan yaranan vergi öhdəliyi notarius tərəfindən ödəmə mənbəyində sadələşdirilmiş vergiyə cəlb ediləcəkdir.

ƏDV-nin ödəyiciləri olmayan alıcılara pərakəndə mal göndərildikdə və ya xidmət göstərildikdə, qəbz və ya çekdən əlavə qaimə-faktura və ya elektron qaimə-faktura da verilə bilər.

Fəaliyyətləri zamanı işçi cəlb edən fiziki şəxslər istisna olmaqla, qeyd olunan fəaliyyət növləri ilə fərdi qaydada məşğul olan fiziki şəxslər sadələşdirilmiş verginin ödəyicilərinə aid edilməklə sabit vergini ödəyəcəklər.

Nəzarət-kassa aparatının çeki və ya qəbz malları alınması ilə bağlı çəkilən xərcləri təsdiq edən sənəd hesab olunur.

Buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı daha 3 il müddətinə ƏDV-dən azad edilmişdir.

Quş ətinin satışı 2017-ci il yanvarın 1-dən 3 il müddətinə ƏDV-dən azad edilmişdir.

Vergiləri könüllü açıqlayanlara maliyyə sanksiyası tətbiq edilməyəcəkdir.

ƏDV-nin ödəyiciləri olmayan alıcılara pərakəndə mal göndərildikdə və ya xidmət göstərildikdə, qəbz və ya çekdən əlavə qaimə-faktura və ya elektron qaimə-faktura da verilə bilər.

Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklərlə daha yaxından və tam şəkildə tanış olmaq üçün Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə 195-1 Çağrı Mərkəzinə və Sizə yaxın olan istənilən Vergi ödəyicilərinə xidmət mərkəzinə müraciət edə bilərsiniz.

***6 saylı Ərazi Vergilər İdarəsi***

# XORUZ İLİ NƏ VƏD EDİR?

**Öncə, Xoruz illəri (bir az geri, bir az irəli): 1933-1945-1957-1969-1981-1993-2005-2017-2029**




Yazırlar ki, bir qədər tünd xasiyyətli Xoruz hər gəlib-dönəmində uca səslə öz ilinin parlaq və sürprizlərlə dolu olacağından xəbər verir. Şərqdə belə hesab edilir ki, Xoruz ili



ümumilikdə hadisələri çətinləşdirməyən, öz yolu ilə gedən, öz fıravanlığı uğrunda vicdanla çalışan, sözündə və əməlində sadiq olan bütün insanlar üçün əlverişli olacaq.

Daha çox, işıq, nur ifadələrilə ahəngləşən Xoruz ili – yəni üzümüzə gələn il od ünsürünə təhvil olunur. Bu isə o deməkdir ki, (əlbəttə, mütəxəssislərə görə), öz həyatımızın qaranlıq tərəflərindən azad olub işıq saçmaq, uğura və çiçəklənməyə mane olan problemlərdən xilas olmaq üçün çoxlu şansımız var.

Ev heyvanlarının lideri olan Xoruzun ilində doğulan insanlar da "çox qürurlu", "özündən əmin", "təkəbbürlü" qisminə aid edilir. Şüarları: "Sədaqətlilik", "Səmimilik". Hər zaman həqiqəti deyər. Verdikləri sözü tutar, daim qarşılıqlı hörmət gözləyər, mənfi cəhətlərin ortaya çıxmasından utanarlar. Müşahidə qabiliyyətləri güclü, hər işi detalınadək incələyəndilər və həttə "çiynində də gözü var" deyiminin əsas səbəbkarı da onlardır.



## ŞƏHİDLƏR

Tutdu qara bulud göyün üzünü,
Günəş göstərmədi, o gün özünü.
Zaman baltaladı haqqın özünü,
Məhv oldu insanlar o yanvar günü.

Xalqımız unutmur o qanlı günü,
Bakını sarsıdan iyirmi yanvar günü.
Vətənə silahlar tuşlanan günü,
Özünü qabağa verdi şəhidlər.

Düşmən gözləyirdi fürsət, bəhanə,
Vəhşicə daraşdı Azərbaycana.
Küçələr, meydanlar boyandı qana,
Adını tarixə yazdı şəhidlər.

İnsanlar can verdi yaş torpaq üstə,
Getdi məzarlığa çiyinlər üstə.
Qərənfil yaş tökdü cənazə üstə,
Adını qanıyla yazdı şəhidlər.

Onlar canlarını qurban etdilər,
Yazova kimliyin sübut etdilər.
Cismiylə meydana sipər çəkdilər,
Vətənə borcunu verdi şəhidlər.

Əsgərlər tutdular bütün hər yanı,
İblis hədəf seçdi Azərbaycanı.
Bakıda axıtdı, günahsız qanı,
Meydanda adını yazdı şəhidlər.

Qorxmadı insanlar, öndə getdilər,
Sevimli torpağa qurban getdilər.
Məqsədi düşmənə bəyan etdilər,
Sözünü düşmənə dedi şəhidlər.

Dünən o xilaskar, o qızıl ordu,
Bu günsə xalqıma tələlər qurdu.
Al-qana boyadı, sevimli yurdu,
Qandan gölməçələr, dənizlər qurdu.

Ölkəmiz o günü matəm saxladı,
Torpaq da ağladı, daş da ağladı.
Analar başına qara bağladı,
Kəfənə büründü o gün şəhidlər.

Xalqımız susmadı, dirçəldi qeyrət,
Ölkədə yaratdı müstəqil dövlət.
Yenə zəfər çaldı düzlük, ədalət.
Zəfər bayrağına döndü şəhidlər.

Üçrəngli bayrağım göyə ucaldı,
Günəştək ölkəyə şəfəqlər saldı.
Qorbaçov dünyadan nifrətlər aldı,
Əyilməz qüdrətə döndü şəhidlər.

Meydandan getməyir qan ləkələri,
Mərmi qəlpələri, güllə izləri.
Məzarı bəzəyir, gül dəstələri,
Böyük and yerinə döndü şəhidlər.

Keçdi yaddaşlara o çətin anlar,
Dağüstü parkda yatan insanlar.
Daim xatırlanır, günahsız qanlar,
Dillərdə dastana döndü şəhidlər.



## VAR OL, HƏKİM

*Ürəkdən peşəsinə bağlanan, həmişə sağaltdığı xəstələrin təbəssümündən təşəkkür alan, fədakar ömür keşikçisi Aşur İmanova həsr edirəm.*

Hər zaman möhtacdır həkimə bəşər,
Sənə loğman desəm, hamı bəyənər.
Halal zəhmətindən alınsan dəyər,
Şəfalı əllərin var olsun, həkim.

Gərgin zəhmətinlə ad-san qazandın,
Hər an xilaskar tək səslənir adın.
Uca zirvəsisən, sən etiqadın,
Deyirəm, əllərin var olsun, həkim!

Zəhmətin parlayır, nur saçır üzün,
Xəstəyə dərmandır şirin xoş sözün.
Hamıya doğmasan, əzizsən özün.
Xilaskar əllərin var olsun, həkim!

Zülmətli gecədə, çanta əlində,
Yaşatmaq arzusu şirin dilində.
Andına sadiqsən öz əməlinlə,
Yaşadan əllərin var olsun, həkim!

Özün gecikmədən yetdin köməyə,
Qoymadın xəstəlik qəddimi əyə.
Yeni həyat verdin ağır xəstəyə,
Şəfalı əllərin var olsun, həkim!

## AR OLSUN

*El-obada sabitliyi pozan, ara vuran, təmiz adamlara qara yaxanlara*

Özgəyə şər yaxma, etmə narahat,
Düzlükdən güc alır, parlayır həyat.
Yaxşılıq üstündür pislikdən qat-qat,
Vicdanla ömür sür, sən yaşa rahat.

El-oba əlindən gəlibdir zara,
Uyma şər işlərə, sən qatma ara.
Bu pis əməlinlə düşərsən dara,
Heç yerdə tapılmaz dərdinə çarə.

Sönmüş ocaq tək alov saçırsan,
Təmiz adamlara qara yaxırsan.
Gündə heç nədən hoqqa açırsan,
Dondan-dona girməyinə ar olsun.

Yağış tək tökülən, bulud tək dolan,
Xəlvətdə özgəyə min tələ quran.
Sifəti təşvişdən saralan, solan,
Xain əməliylə daim xar olsun.

Tiri sən görmürsən bir cüt gözündə,
Abrı-həya yoxdur vallah üzündə.
İnan kələkbazsan hər bir sözündə,
Özgəyə şər yaxmağına ar olsun.

Ariflər sözündən tanıyır səni,
Yalanla bəzədin bütün ölkəni.
Günahkar sayırsan daim özgəni,
Günahsıza qara yaxan xar olsun.

Hamı xəbərdardır pis əməlindən,
Doğru danış, zər tökülsün dilindən.
Ara qatan, qələm düşsün əlindən,
Özgə adla yazmağına ar olsun!

***Muradəli Hüseynov***
***Hamarat kəndi***



MÜKAFAT YAQUB

## AZƏRBAYCAN

Vətən- bu el, bu obadı,
Vətən-bu dağ, bu qayadı,
Vətən-isti bir sobadı,
Ocağında ürək yanar!

Qanım qaynar bu düzlərdə,
Qurban getsə lap yüzlər də.
Qürur görərsən üzlərdə...
Keşiyində mərd dayanar.

Doğma yurdum Azərbaycan,
Vətən, borcum sənə bir can!..
Qurban ollam axıracan,
Canım olsa yenə min can!
Urmiyadan Bakıyacan,
Qaynayar vulkan oyanar!

## DÜNYA...

Qarışmadım çox işinə,
Dünya məni tora saldı.
Ədasıyla, cilvəsiylə,
Ağlımı başımdan aldı.

Şirnikdirdi, çəkdi düzə,
Barışmadım, durdu üzə.
Dişi batmadı cövüzə,
Öcünü daşımdan aldı.

Əvvəldən durdu qəsdimə,
Yetişmədi haq səsimə.
İlişdirdi cələsinə,
Hesabı yaşımdan aldı.

Oynamadım züy səsinə,
Sığınmadım kölgəsinə.
Keçməsəm də pəncəsinə,
Havası başımda qaldı.

## TÜSTÜLƏN

Uca Savalanın zirvəsində qar,
Həsrətin tüstüsü təpəmdən çıxar,
Qüssədən inləyir sinəmdəki tar.
Tüstülən, tüstülən, tarım, tüstülən,
Zirvədə qarıyan, qarım, tüstülən.

Arazdan boylanan Səttar vur, deyir,
Şəhriyar vur deyir, Sərdar vur deyir,
Qəzəbdən Şah babam zəncir çeynəyir.
Tüstülən, tüstülən, zorum, tüstülən,
Qartalım tüstülən, sarım, tüstülən.

Qaldı Qarabağda, varımız qaldı,
Dərmədik, ağacda barımız qaldı,
Şəhidlər qanından torpaq qızardı.
Tüstülən, tüstülən varım, tüstülən,
Şəhidlər uyuvan gorum, tüstülən.

Vətənə əyilən başa xar, demə,
Düşmənə atılan daşa ar, demə,
Qürbətə çevrilsə, yaşayar demə,
Tüstülən, tüstülən zarım, tüstülən,
Şuşada bülbülüm, xarım tüstülən.

Yarı o taydayıq, yarı bu tayda,
Ahu-zar etməkdən yoxdur bir fayda,
Dünyanı alarıq indi bu sayda.
Tüstülən, tüstülən, yarım, tüstülən
İmdada yetməyən arım, tüstülən...



## 20 YANVAR AĞLATDI BİZİ

Qanlı hərflərlə yazıldı axşam,
Məzarlar üstündə yandırıldı şam.
Bütün Azərbaycan matəm içində,
Böyük də, kiçik də qara biçimdə.

Millətim səpirdi yola qərənfil,
Şəhidlər qanına bələndi qəfil.
Yer-göy "oğul" deyib hey ağlayırdı,
Xalq öz şəhidinə yas saxlayırdı.

Tabutlar gedirdi çiyin üstündə,
Qərənfil düzülür məzar üstünə.
Xiyabanda ağaclar saçın yolmuşdu,
İmansız əsgərlər səf-səf durmuşdu.

Millətim axıtdı göz yaşlarını,
Şəhidlər qoyuldu soyuq məzara.
Vətən geniş açdı qucaqlarını,
Xiyaban hamının dərd yeri oldu.

Ya rəbb, bizə göndər ulu Heydəri,
Silsin millətimin dərdini, səri.
Heydər gəldi, millətə dayaq oldu,
Yanvar şəhidləri qiymətin aldı.

***Əkrəm Xürrəmi***




## İŞIQFOR SORAĞINDA



İşıqfor – yeni svetafor dediyimiz şəhərdə müxtəlif nəqliyyat vasitələrinin və piyadaların küçədə hərəkətini tənzimləyən əsas vasitədir. Təsəvvür edin ki, əgər şəhərdə işıqforlar olmasa, onda aləm bir-birinə qarışar, küçələrdə tıxac əlindən tərpənmək olmaz, avtonəqliyyat vasitələrinin qəzası qaçılmaz olar, piyadalar çaş-baş düşərlər

Lerik şəhərinə də bir neçə ildir ki, şəhər statusu verilib, yeni tikintilər göz oxşayır, şəhərin infrastrukturu yeniləşir, irimiqyaslı layihələr həyata keçirilir. Eyni zamanda, yeni avtonəqliyyat vasitələrinin, minik maşınlarının sayı xeyli artıb. Bəzən küçələrdən keçmək olmur, küçələr maşınların saxlanc yerinə çevrildiyindən piyadalar çətinliklə oranı keçirlər.

Lerikdən azı 4-5 yerdə işıqforların qoyulmasına ehtiyac var. Bu, həm avtonəqliyyat vasitələrinin hərəkətini tənzimləyər, həm də piyadaların təhlükəsizliyini təmin edər. Zənnimizcə, kimə desən lerik şəhərində işıqfor yoxdur, təəccüblənər, inanmaz. Əgər Lerikə şəhər deyiriksə, küçələrində işıqfor olmalıdır. Bu, avtonəqliyyat vasitələrinin, sürücülərin yol-hərəkət qaydalarını pozma hallarında düzgün nəticə çıxarmaqda əvəzsiz rola malik olar və bu çox vacibdir.

***"Lerik"***

## SİZ ELÇİN VƏKİL OĞLU ŞAMIYEVİ TANIYIRSINIZMI?



O, 1965-ci ildə anadan olmuşdur. 1992-ci ilin fevral ayının 26-da - yeni Xocalı qətliamı baş verən gündən erməni cəlladlarına qarşı qeyri-bərabər döyüşdə mərdliklə vuruşmuş, bir neçə güllə yarası alaraq əsir götürülmüşdür. Elçin Şamıyev işgəncələrlə öldürülmüşdür. Onun məzarı Bakının Şəhidlər Xiyabanındadır.

"Lerik"in gələn saylarında Elçin Şamıyev haqqında yazılmış oçerki oxucularımıza təqdim edəcəyik.

Bizi izləyin.

## "LERİK"Ə ABUNƏ OLUN

2017-ci ilin I yarımilliyi üçün "Lerik" qəzetinə abunə kampaniyası başlanmışdır.

6 aylıq abunə qiyməti
10 manatdır.

Əlavə məlumat almaq üçün "Mətbuatyayım"ının Lerik rayon şöbəsinə (027) 4-55-18, Lerik Post Filialına (027) 4-55-14, redaksiyamıza (027) 4-54-50 nömrəli telefonlara zəng edin.

## ELAN

Vətəndaşların nəzərinə!

1. Rayon ərazisində qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə, saxlama faktları ilə qarşılaşırsınızsa;

2. Meşə sahələrində, bələdiyyə torpaqlarında vətəndaşlara məxsus torpaq sahələrində tərkibində narkotik maddələr olan bitkilərin qanunsuz olaraq əkilib-becərilməsi halları sizə məlumdursa;

3. Narkotik maddələrdən sui-istifadə halları ilə qarşılaşırsınızsa komissiyanın 025 274-60-21 nömrəli etimad telefonuna zəng edin.

Narkotiklə mübarizə fəal olun!
Anonimliyə zəmanət verilir.

**Lerik rayon komissiyası**

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan kəndindən Ağaş Mirzəyev və ailəsi yaxın qohumu
**Gülverdinin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

İdris Şükürlü, Elxan Əliyev, Nizam Muradov, İlqar Kərimov, Ziyafət İsmayılova anasının, Zəfər İsmayılova qayınatasının
**REYHANƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.



**Təsisçilər:** Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin redaksiyası
**Redaktor:** İdris ŞÜKÜRLÜ

Redaksiyanın ünvanı: Lerik şəhəri, Nizami küç. - 36.
Tel.: (070) 520-73-91
(0157) 4-54-50

Yazılardakı faktlara və ifadələrə görə müəlliflər məsuliyyət daşıyırlar. Əlyazmalar geri qaytarılmır.
Sifariş: 165 Tiraj: 500

Lisenziya № V 280
VÖEN 6300050071
Redaksiyanın "Kapital" bankın Lerik filialındakı hesab nömrəsi:
AZ05AİİB33080019447400220174

Kod: 200747
İndeks: 90935

Qəzet "Mətbuat" firmasının mətbəəsində çap edilmişdir.